Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının
“17” yanvar 2019-cu il tarixli 01 (216)
nömrəli qərarı ilə təsdiq edilmişdir

# Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılmasına dair Təlimat

## 1. Ümumi müddəalar

1.1. Bu Təlimat Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 652 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə, gənclər siyasəti sahəsində qrantlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu ilə razılaşdırılması Qaydası”nın (bundan sonra – Qayda) icrası ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası (bundan sonra-Şura) tərəfindən yaradılmış Qrantların razılaşdırılması üzrə Komissiyanın (bundan sonra-Komissiya) fəaliyyətini tənzimləyir.

1.2. Komissiya Şura adından dövlət orqanları tərəfindən verilən qrantlar vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzuları qiymətləndirir və bu qrantlara dair rəylərini həmin dövlət orqanlarına bildirir.

## 2. Komissiyanın yaradılması və fəaliyyətinin təşkili

2.1. Dövlət orqanları tərəfindən verilən qrantlar vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzuların qiymətləndirilməsi və bu qrantlara dair rəylərin bildirilməsi ilə bağlı Şura tərəfindən 7 nəfərlik tərkibdə Komissiya yaradılır. Komissiyanın tərkibi Şura üzvləri və Şura Katibliyinin (bundan sonra – Katiblik) əməkdaşlarından təşkil olunur. Komissiyanın sədri Şura tərəfindən seçilir. Komissiya birinci iclasında öz üzvləri arasından katibini seçir.

2.2. Komissiya iclaslarını dövlət orqanları tərəfindən verilən qrantlar vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzuların qiymətləndirilməsi və bu qrantlara dair rəylərin bildirilməsi zamanı keçirir.

2.3. Komissiyanın iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır. Keçirilən iclaslar protokollaşdırılır.

2.4. Komissiya rəyini iclasda iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edir və səslər bərabər olduqda Komissiya sədrinin səsi həlledici hesab olunur. Komissiyanın rəyi onun sədri və katibi tərəfindən imzalanır.

## 3. Komissiya tərəfindən müsabiqələrin və qrant vasitəsilə maliyyələşdirilən mövzuların qiymətləndirilməsi

3.1. Dövlət orqanı tərəfindən Qaydanın 2.1-ci bəndi ilə müəyyən edilmiş məlumatlar təqdim olunduqdan sonra Komissiya üzvləri 10 iş günü müddətində

müsabiqələrin tarixləri və maliyyələşdirilməsi nəzərdə tutulan mövzular barədə dövlət orqanlarının təklifləri ilə tanış olur və bu təkliflərin müqayisəli təhlilini aparır. Mövzular qiymətləndirilərkən Komissiya təqdim olunan mövzuların dövlət orqanının fəaliyyət istiqamətlərinə uyğunluğu da nəzərdən keçirir.

3.2. Bu Təlimatın 3.1-ci bəndində qeyd olunan məlumatlarla tanışlıqdan sonra Komissiya 10 iş günü müddətində iclasını keçirir. Komissiya qiymətləndirmə nəticələrinə əsasən təqdim edilmiş müsabiqələrin tarixləri və qrant vasitəsilə maliyyələşdirilən mövzuların məqsədəmüvafiq olub-olmaması barədə müvafiq rəy qəbul edir.

3.3. Komissiya rəy qəbul etdikdən sonra 10 iş günü müddətində bu rəy Şura tərəfindən dövlət orqanına təqdim olunur.

## 4. Komissiya tərəfindən müsabiqədə iştirak edən QHT-lərin və onların təqdim etdikləri layihələrin qiymətləndirilməsi

4.1. Dövlət orqanı tərəfindən Qaydanın 4.1-ci bəndi ilə müəyyən edilmiş məlumatlar təqdim olunduqdan sonra Komissiya üzvləri 3 iş günü müddətində QHT-lər və onların təqdim etdikləri layihələr barədə məlumatlarla tanış olur.

4.2. Bu Təlimatın 4.1-ci bəndində qeyd olunan məlumatlarla tanışlıqdan sonra Komissiya 4 iş günü müddətində iclasını keçirir. Komissiya qiymətləndirmə nəticələrinə əsasən QHT-lərin və onların təqdim etdikləri layihələrin məqsədəmüvafiq olub-olmaması barədə müvafiq rəy qəbul edir.

4.3. Komissiya rəy qəbul etdikdən sonra 3 iş günü müddətində bu rəy Şura tərəfindən dövlət orqanına təqdim olunur.

## 5. Yekun müddəalar

5.1. Komissiya Qaydanın və bu Təlimatın tələblərindən irəli gələn məsələlər üzrə dövlət orqanlarına məlumat, konsultativ, metodiki və təşkilati-texniki dəstək göstərir.

5.2. Katiblik Komissiyanın fəaliyyətinin həyata keçirilməsinin təşkilati-texniki əsaslarını təmin edir, həmçinin dövlət orqanları tərəfindən Qayda ilə müəyyən edilmiş müvafiq məlumatların elektron proqram vasitəsilə təqdim olunmasını təmin edir.